Azərbaycan Respublikası
Nazirlər Kabinetinin 2026-cı il
“ 25 ” noyabr tarixli
393 nömrəli Qərarı ilə
təsdiq edilmişdir.

Respublika və beynəlxalq miqyaslı bədən tərbiyəsi və idman tədbirlərinin, Vahid təqvim planına daxil edilmiş bədən tərbiyəsi tədbirlərinin və idman yarışlarının maliyyələşdirilməsi Qaydaları və bu tədbirlərin təşkili və keçirilməsinə ayrılan xərclərin

NORMALARI

1. Ümumi müddəalar

1.1. Bu Qaydalar “Bədən tərbiyəsi və idman haqqında” Azərbaycan Respublikası Qanununun 39.3-cü maddəsinə əsasən hazırlanmışdır və respublika və beynəlxalq miqyaslı bədən tərbiyəsi və idman tədbirlərinin, Vahid təqvim planına daxil edilmiş bədən tərbiyəsi tədbirlərinin və idman yarışlarının (bundan sonra - idman tədbirləri) maliyyələşdirilməsi qaydalarını və bu tədbirlərin təşkili və keçirilməsinə ayrılan xərclərin normalarını müəyyən edir.

1.2. İdman tədbirlərinin iştirakçıları (idmançı, məşqçi, hakim, tibbi heyət, komanda meneceri, müşayiət edən şəxs və s.) müvafiq idman tədbiri üzrə əsasnamə, dəvətnamə və digər sənədlərə əsasən müəyyən olunur.

2. İdman tədbirlərinin keçirilməsi ilə bağlı xərclərin planlaşdırılması

2.1. İdman tədbirlərinin keçirilməsində dövlət büdcəsinin vəsaitlərindən istifadə edən Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi (bundan sonra – Nazirlik) gələn il üçün keçiriləcək idman tədbirlərinə tələb olunan zəruri vəsaitlərin ümumi hesablamalarını cari ilin 1 iyul tarixinə qədər Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim edir.

2.2. Müvafiq idman federasiyası və ya digər aidiyyəti təşkilatlar (bundan sonra – təşkilatlar) Nazirlik tərəfindən ümumi hesablamaların hazırlanması məqsədilə bu Qaydaların 2.1-ci bəndində nəzərdə tutulmuş müddəti nəzərə alaraq keçiriləcək idman tədbirləri və tələb olunan zəruri vəsaitlərlə bağlı ilkin məlumatları Nazirliyə təqdim etməlidirlər.

2.3. Ümumi hesablamalarda idman növləri üzrə keçiriləcək tədbirlərin iştirakçılarının sayı, tədbir günlərinin sayı, günlərin sayına görə adambaşına tələb olunan vəsait və tədbirin keçirilməsinə tələb olunan ümumi xərclərin məbləği öz əksini tapır.

2.4. Nazirlik 2.1-ci bənddə nəzərdə tutulmuş ümumi hesablamalar əsasında ümumi xərclər smetasını hazırlayır və təsdiq edir.

3. İdman tədbirlərinin maliyyələşdirilməsi qaydaları, xərclərin normaları və strukturu

3.1. İdman tədbirlərinin keçirilməsi zamanı iştirakçıların mehmanxana və gündəlik xərcləri (yemək, şəhərdaxili nəqliyyat, rabitə və digər xidmətlər ilə bağlı xərclər) ezamiyyə

xərclərinin normalarını müəyyən edən müvafiq qanunvericiliyin tələblərinə uyğun tənzimlənir. Xaricdə keçirilən idman tədbirləri ilə bağlı tədbiri təşkil edən xarici təşkilatın təqdim etdiyi sənədlərdə fərqli məbləğlər nəzərdə tutulduqda ezamiyyə xərcləri təqdim edilən faktiki sənədlər (yarışlar haqqında əsasnamə, dəvətnamə, tənzimləyici normativ və təqdim olunan digər təsdiqedici sənədlər) əsasında ödənilir. Nəqliyyat xərcləri (ezam olunma yerinə getmək və qayıtmaq, ölkədaxili xərclər) təqdim edilən sənədlər əsasında ödənilir. Beynəlxalq miqyaslı idman tədbirlərinin əsasnamələrində (dəvətnamələrində) nəzərdə tutulan xərclər həmin əsasnamələrə (dəvətnamələrə) uyğun ödənilir. Xarici ölkədə keçirilən beynəlxalq miqyaslı idman tədbirində iştirakla bağlı digər xərclər (iştirak haqqı, qeydiyyat haqqı, avadanlıqların daşınma və icarəsi, gömrük rüsumu və sair), viza və sığorta xərcləri təsdiqedici sənədlər əsasında ödənilir.

3.2. Azərbaycan Respublikasının ərazisində keçirilən respublika səviyyəli və beynəlxalq miqyaslı idman tədbirlərində idman qurğuları, avadanlıqların icarəsi, nəqliyyat xərcləri (nəqliyyat vasitələrinin icarəsi), tədbir yerinin tərtibatı və zəruri xidmətlərin (audio-vizual avadanlıq, yarış zalının işıqlandırma sistemi, xalların hesablanması) göstərilməsi, təcili tibbi yardım xidmətinin göstərilməsi, xarici ölkələrin nümayəndə heyəti üzvlərinin mehmanxana, avtomobil, hava və dəmiryol nəqliyyatından istifadəsi ilə bağlı xərclər, idman təqdimatı (tədbirin musiqi tərtibatı, aparıcıları, idman növü ilə bağlı kontentin hazırlanması, tamaşaçılarla iş), media və sosial şəbəkələrdə işıqlandırma xərcləri müvafiq olaraq mövcud tariflərə və dövlət satınalmaları haqqında qanunvericiliyin tələblərinə əsasən tənzimlənir.

3.3. İdmançı zədələndikdə, fors-major hallar baş verdikdə və digər üzrlü səbəblərdən xarici ölkədə keçirilən beynəlxalq miqyaslı idman tədbirində iştirak etmədiyi halda, həmin idmançı və məşqçi üçün ödənilmiş vəsait (təyinatı üzrə xərclənmiş hissəsi istisna olmaqla) geri ödənilir.

3.4. Xidməti ezamiyyətlər zamanı idman tədbiri iştirakçılarının əməkhaqlarının saxlanılması qanunvericiliklə müəyyən olunmuş qaydada həyata keçirilir.

3.5. İdman tədbirlərində xidmətə görə hakimlərə verilən xidmət haqları bu Qaydaların 1 nömrəli əlavəsinə, Azərbaycan Respublikasının ərazisində keçirilən beynəlxalq miqyaslı idman tədbirləri zamanı xarici ölkələrin nümayəndə heyətlərinin qəbulu ilə bağlı xərclər bu Qaydaların 2 nömrəli əlavəsinə uyğun olaraq müəyyən edilir.

3.6. İdman tədbirlərində iştirakın təmin edilməsi məqsədilə, zərurət yarandığı təqdirdə reys təyyarələri ilə yanaşı, çarter reysləri də təşkil oluna bilər.

3.7. İdman tədbirlərinin təşkili və keçirilməsi üzrə xərclərin strukturu aşağıdakı kimi müəyyənləşdirilir:

3.7.1. Azərbaycan Respublikasının ərazisində keçirilən respublika səviyyəli idman tədbirləri üzrə:

3.7.1.1. ezamiyyə xərcləri;

3.7.1.2. nəqliyyat xərcləri (ezamolunma yerinə getmək və qayıtmaq, nəqliyyat vasitəsinin icarə xərcləri);

3.7.1.3. idman qurğuları və avadanlıqlarının icarəsi;

3.7.1.4. tədbir yerinin tərtibatı və zəruri xidmətlər ilə bağlı xərclər;

3.7.1.5. hakimlərin xidmət haqqı;

3.7.1.6. təcili tibbi yardım xidməti;

3.7.1.7. media və sosial şəbəkələrdə işıqlandırma xərcləri;

3.7.1.8. idman təqdimatı xərcləri;

3.7.2. Azərbaycan Respublikasının ərazisində keçirilən beynəlxalq miqyaslı idman tədbirləri üzrə:

3.7.2.1. ezamiyyə xərcləri;

3.7.2.2. nəqliyyat xərcləri (ezamolunma yerinə getmək və qayıtmaq, nəqliyyat vasitəsinin icarə xərcləri);

3.7.2.3. xarici nümayəndə heyətlərinin qəbulu ilə əlaqədar xərclər;

3.7.2.4. idman qurğuları və avadanlıqlarının icarəsi;
3.7.2.5. tədbir yerinin tərtibatı və zəruri xidmətlər xərci;
3.7.2.6. hakimlərin xidmət haqqı;
3.7.2.7. təcili tibbi yardım xidməti;
3.7.2.8. media və sosial şəbəkələrdə işıqlandırma xərcləri;
3.7.2.9. idman təqdimatı xərcləri;
3.7.3. Xarici ölkələrdə keçirilən beynəlxalq miqyaslı idman tədbirləri üzrə:
3.7.3.1. ezamiyyə xərcləri;
3.7.3.2. nəqliyyat xərcləri (ezamolunma yerinə getmək və qayıtmaq, ölkədaxili xərclər);
3.7.3.3. viza və sığorta xərcləri;
3.7.3.4. beynəlxalq miqyaslı idman tədbirlərinin əsasnamələrində (dəvətnamə) nəzərdə tutulan xərclər;
3.7.3.5. xarici ölkədə keçirilən beynəlxalq miqyaslı idman tədbirində iştirakla bağlı digər xərclər.

4. İdman tədbirlərinin keçirilməsi ilə bağlı sənədlərin təqdim olunması və təsdiq edilməsi

4.1. İdman tədbirlərinin keçirilməsinə ən azı 30 gün qalmış təşkilatlar tərəfindən Nazirliyə dəqiqləşdirilmiş məlumatları özündə əks etdirən aşağıdakı sənədlər təqdim olunur:
4.1.1. Azərbaycan Respublikasının ərazisində keçirilən respublika səviyyəli və beynəlxalq miqyaslı idman tədbirləri üzrə:
4.1.1.1. idman tədbiri haqqında əsasnamə (dəvətnamə);
4.1.1.2. idman tədbiri iştirakçılarının say həddini, tədbirin keçirilməsi yeri və müddətini, maddi təminat normalarını əhatə edən xərclər smetası;
4.1.1.3. təlim-məşq toplanışının təşkili ilə bağlı təqdim olunan faktiki sənədlər;
4.1.1.4. Azərbaycan Respublikasının ərazisində keçirilməsi planlaşdırılan beynəlxalq idman tədbiri üzrə beynəlxalq idman federasiyasının tədbirin keçirilməsi hüququnun verilməsi barədə qərarı və ya digər təsdiqedici sənəd, habelə tədbirin keçirilməsi ilə bağlı bağlanılmış müqavilə (mövcud olduqda);
4.1.2. xarici ölkələrdə təşkil olunan beynəlxalq miqyaslı idman tədbirləri üzrə:
4.1.2.1. idman tədbiri haqqında əsasnamə (dəvətnamə);
4.1.2.2. idman tədbiri iştirakçılarının say həddini, tədbirin keçirilmə yeri və müddətini, maddi təminat normalarını əhatə edən smeta;
4.1.2.3. təlim-məşq toplanışının təşkili ilə bağlı təqdim olunan faktiki sənədlər.
4.2. Bu Qaydaların 4.1-ci bəndində göstərilmiş sənədlərə Nazirlik tərəfindən baxılır və sənədlərdə natamamlıqlar və ya qeyri-müəyyənliklər aşkar olunduğu halda, 7 (yeddi) gün müddətində bununla bağlı aidiyyəti təşkilata məlumat verilir. Məlumat verildiyi gündən 5 (beş) gün müddətində aidiyyəti təşkilat tərəfindən çatışmazlıqlar aradan qaldırılmaqla sənədlər yenidən Nazirliyə təqdim olunmalıdır.

4.3. İdman tədbirləri keçirilərkən aşağıdakı sənədlər Nazirlik tərəfindən təsdiq edilir:
4.3.1. respublika səviyyəli idman tədbirlərində yarış haqqında əsasnamə (dəvətnamə);
4.3.2. idman tədbirlərində iştirakçıların say həddini, tədbirin keçirilməsi yeri və müddətini, maddi təminat normalarını əhatə edən xərclər smetası.

5. Hesabat və nəzarət

5.1. İdman tədbirlərinin keçirilməsi ilə bağlı yekun hesabatın hazırlanması üçün Nazirlik tərəfindən maddi məsul şəxs təyin olunur.

5.2. Maddi məsul şəxs tədbir başa çatdıqdan sonra 7 (yeddi) iş günü müddətində Nazirliyin mühasibatlığına tədbirin maliyyə hesabatlarını təqdim etməlidir. Respublika səviyyəli idman tədbirlərinin maliyyə hesabatına baş hakimin tədbirin nəticələri haqqında yazılı texniki hesabatı da əlavə olunur.

5.3. Dövlət büdcəsində idman tədbirinin keçirilməsinə məsul olan təşkilata dövlət dəstəyi üzrə nəzərdə tutulmuş vəsaitlərin ayrılması və uçotu, həmçinin təyinatı üzrə xərclənməsi üzərində nəzarət "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

6. Məsuliyyət

İdman tədbirlərinin keçirilməsinə məsul olan təşkilatlar tədbirin keçirilməsi üçün ayrılmış vəsaitlərin öz təyinatı üzrə düzgün xərclənməməsinə görə qanunla müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

“Respublika və beynəlxalq miqyaslı bədən tərbiyəsi və idman tədbirlərinin, Vahid təqvim planına daxil edilmiş bədən tərbiyəsi tədbirlərinin və idman yarışlarının maliyyələşdirilməsi Qaydaları və bu tədbirlərin təşkili və keçirilməsinə ayrılan xərclərin Normaları”na

1 nömrəli əlavə

Hakimlərin xidmət haqqı
NORMALARI

Hakim vəzifələrinin adı	**Xidmət haqqının miqdarı (1 nəfərə, gündəlik, manatla)**	
	Azərbaycan Respublikasının ərazisində keçirilən respublika səviyyəli idman tədbirləri	**Azərbaycan Respublikasının ərazisində keçirilən beynəlxalq miqyaslı idman tədbirləri**
Baş hakim	50	100
Hakimlər briqadasının üzvləri və yarışların baş katibi	25	50

Qeydlər:

1. Hakimlərin xidmət haqqı onların öz funksiyalarını yerinə yetirdikləri günlər üçün nəzərdə tutulur.

2. İdman yarışlarında xidmətə görə hakimlərə xidmət haqlarının verilməsi bu Qaydalarda nəzərdə tutulan digər maddi təminat növlərindən asılı olmayaraq həyata keçirilir.

3. Hakim briqadasının say tərkibi idman növləri üzrə yarışların keçirilməsi haqqında qaydalara və əsasnamələrə (dəvətnamələrə) uyğun olaraq müəyyənləşdirilir.

4. Tədbirin keçirildiyi şəhər (rayon) hakimin faktiki yaşayış yeri olduğu təqdirdə, ona qanunvericiliklə müəyyən edilmiş ezamiyyə xərclərinin normalarına uyğun yemək xərci ödənilir.

"Respublika və beynəlxalq miqyaslı bədən tərbiyəsi və idman tədbirlərinin, Vahid təqvim planına daxil edilmiş bədən tərbiyəsi tədbirlərinin və idman yarışlarının maliyyələşdirilməsi Qaydaları və bu tədbirlərin təşkili və keçirilməsinə ayrılan xərclərin Normaları"na

2 nömrəli əlavə

Azərbaycan Respublikasının ərazisində keçirilən beynəlxalq miqyaslı idman tədbirləri zamanı xarici nümayəndə heyətlərinin qəbulu ilə əlaqədar
XƏRC NORMALARI

Heyətin tərkibi	Vəzifəsi	Xərclərin adı, xərc normasının yuxarı həddi (manatla)				
		Mehmanxana (1 nəfər üçün)	Yemək (bir nəfər üçün, gündəlik)	Ölkədaxili nəqliyyat		
				avtomobil	hava	dəmir-yol
Olimpiya komitələri, beynəlxalq, Avropa və ölkə federasiyalarının prezidentləri, baş katibləri, şirkət rəhbərləri və müavinləri, görkəmli dövlət və ictimai xadimlərin rəhbərlik etdikləri nümayəndə heyəti	Nümayəndə heyətinin rəhbəri	Yarımlüks kateqoriyalı	Nahar yeməyi - 40 Şam yeməyi - 60	"Sedan" tipli minik avtomobili ilə 1 gündə 12 saata qədər	Reys təyyarəsi (biznes sinif)	1-ci sinif
	Nümayəndə heyətinin üzvləri	Standart kateqoriyalı		10 nəfərə qədər olduqda, hər 3 üzvünə banı "Sedan" tipli 1 ədəd minik avtomobili, 10 nəfər və 10 nəfərdən çox olduqda, üzvlərin sayından asılı olaraq müvafiq tipli avtobusla 1 gündə 10 saata qədər	Reys təyyarəsi (ekonom sinif)	Standart sinif
İdmançılar, məşqçilər, mütəxəssislər və rəsmi şəxslərdən ibarət xarici	Nümayəndə heyətinin rəhbəri	Standart kateqoriyalı	Nahar yeməyi - 25 Şam yeməyi - 50		Reys təyyarəsi (ekonom sinif)	Standart sinif
	Nümayəndə					

nümayəndə heyəti	heyətinin üzvləri					

Qeydlər:

1. Xarici ölkələrin nümayəndə heyətlərinin qəbulu ilə əlaqədar nahar, şam yeməyi verilməsi zamanı Azərbaycan Respublikası tərəfindən iştirakçıların sayı xarici nümayəndə heyəti üzvlərinin sayından çox olmamalıdır.

2. Tərcümə xidmətlərinin ödənişi:

2.1. xarici ölkələrin nümayəndə heyətlərinə tərcümə xidməti xərcləri tərcümə xidməti göstərən hüquqi və ya fiziki şəxslərlə real bazar qiymətlərinə və dövlət satınalmaları haqqında qanunvericiliyin tələblərinə uyğun olaraq bağlanılmış müqavilə və müvafiq təsdiqedici sənədlər əsasında ödənilir;

2.2. xarici ölkələrin nümayəndə heyəti üzvlərinin sayı 15 (on beş) nəfərədək olduqda hər nümayəndə heyəti üçün 1 (bir) nəfər tərcüməçi (müşayiət edən şəxs) təyin edilir;

2.3. xarici nümayəndə heyətinin say tərkibindən asılı olmayaraq, hər nümayəndə heyətinə (nümayəndəsinə) tərcümə xidmətinə görə 1 (bir) nəfər tərcüməçi (müşayiət edən şəxs) təyin edilməsi onların ayrı-ayrı dil qruplarına mənsub olması zamanı tətbiq edilir.

3. Qəbul edən tərəfin danışıqlarda iştirak edən nümayəndəsinə, tərcüməçiyə (müşayiət edən şəxsə) zəruri hallarda müvafiq xarici nümayəndə heyəti üçün müəyyən edilmiş yemək, mehmanxana, nəqliyyat, hava, yaxud dəmiryol nəqliyyatı ilə hərəkət normaları şamil edilir.

_____